# Elçilik

*(hekayə)*



Sevincin üz-gözünü bürümüş sevinc Telmanın diqqətindən yayınmadı. Sezilməsi çətin olmayan bir təbəssümlə "Sözlü adama oxşayırsan..." - dedi.

- Hə, sözüm var. Sən də sevinəcəksən. Yaqubumuz sevdaya düşüb. Axır ki, tərpəndi.

Yaqubun 27 yaşı vardı. Evlənmək istəmirdi. Sevincin sevincək çatdırdığı xəbər ona bir ürək tutumunca könül xoşluğu verdi:

- Kimdi, nəçidi, hardan tanıyır? - səbirsizliklə soruşdu.

Sevinc stulunu bir qədər yaxına çəkdi:

- Təzəlikcə Yaqubun işlədiyi klinikada işə düzəlib. Getdim, gördüm, danışdım. Yaraşıqlı, suyuşirin qızdı. Kim olduğumu biləndə qızardı. Həyalıdı axı...

- Bəs ailəsi?

- Bir anasıdı, bir özü. Atası Qarabağda şəhid olub.

Telmanın düşüncələrini yellər daraqladı elə bil. Elə bil, yayın yay günü borana, tufana tuş gəldi - canından üşütmə keçdi...

Universitetin müəllimiydi. Təzəlikcə müdafiə etmişdi. Qarabağda vəziyyət gərginləşəndə o da rahatlığını itirmişdi. Döyüşlərə getmək istədiyini kimsəyə demirdi. Ata-anası rayondaydı. Onlar xəbər tutunca döyüşənlərin sırasında olacaqdı. Kimi-kimsənəsi olmayan həyat yoldaşının "Bəs biz? Bəs üç yaşlı oğlun?" deyəcəyini bilirdi. "Oğlumuz yaşında uşaqların ataları da döyüşür. Şəhid olanlar da var..." deyəcək, qərarından dönməyəcəkdi...

O da döyüşlərə getmişdi. Ağdam könüllü müdafiə batalyonuna yazılmışdı...

Neçə-neçə döyüşdə iştirak etmişdi...

Ağır yaralanmışdı. Üç ay çəkən müalicələrdən sonra tərxis edilmişdi...

Qətiyyətlə:

- Şəhid qızıdı. Oğlumun könlünə yatıbsa, elçiliyə gedəcəyik, - dedi, yanağına süzülən göz yaşlarını Sevincdən gizlətmək üçün pəncərəyə tərəf getdi.

...Elçiləri böyük ehtiramla qarşıladılar.

Adətdi, sözə elçilər başlayar. Telman araya çökən üzücü sükutu pozmaq istəyirdi ki, baxışları divarda çərçivəyə alınmış şəklə sataşdı. Elə bil canına od düşdü. Havası çatmırdı. Udqundu. Şəklə bir də baxdı. 25 il əvvəl Sırxavənddə çəkilmişdi.

Oğlu döyüşçü dostu Səlimin qızına sevdalıymış...

Telmanın haldan-hala düşməsi Samirənin əmisinin diqqətindən yayınmadı:

- Rəhmətlik qardaşımın son şəklidi - dedi. Hələ nə olduğunu, qonağın niyə haldan-hala düşdüyünü anlaya bilmirdi...

Şəkil Telmanı 25 il əvvələ aparmışdı: Səlimlə səmimi münasibət elə ilk gündən yaranmışdı. Tələbə olanda ikisi də güləşlə məşğul olurdu. Respublika birinciliyində Telman Səlimə uduzmuşdu. Bir də batalyonda görüşmüşdülər - ikisi də döyüşlərə gəlmişdi...

Döyüşdən təzə çıxmışdılar. Komandir Telmanla Səlimi yanına çağırmışdı. Beş-altı addım aralıda dayanmış cavana, "Bu igidlərin şəklini çək", - demişdi. "Tarixdi, xatirə qalar..."...

Səhərisi gün komandir hərəsinə bir şəkil vermişdi. Səlim gülümsünmüş,"Sənin oğlun, mənim qızım böyüyəndə fəxr edəcək..." - demişdi. Həmin şəkiliydi...

Üç gündən sonra düşmən qəfil hücum etmişdi. Komandirin əmriylə səngərlərdən döyüşə atılmışdılar. Atışmışdılar. Bu döyüşü müharibənin son döyüşü bilib atışmışdılar. Vətən adına atışmışdılar. Nəyin bahasına olursa-olsun, düşməni geri oturtmaq üçün atışmışdılar.

Sol cinahda daha ağır döyüş getdiyini Telman da hiss etmişdi, Səlim də. İkisi də atışı həmin səmtə yönəltmişdi.

Düşmən geri çəkilirdi...

Qəflətən sol çiyni isinmişdi. Huşunu itirmişdi. Səlimdən xəbəri olmamışdı...

Telman ona dikilən baxışlara məhəl qoymadan ayağa qalxdı. Yaxınlaşıb şəkili götürdü. Öpdü. Bir də baxdı. Bir də öpdü...

Otağa qəribə səssizlik çökdü. Heç kim heç nə anlaya bilmirdi.

- Bu, mənəm, bu, Səlimdi. 92-də Sırxavənddə çəkdirmişdik. Döyüşdən üç gün əvvəl. Qan qardaşımın qızının gəlinim olmasına razılıq verin...

...Telman Samirəni bağrına basmışdı. Telmanın göz yaşları Samirənin, Samirənin göz yaşları Telmanın kürəyini isladırdı...

Telman "Qızım!" - deyirdi, Samirə - "Ata!"...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**